**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN ORTA ƏSR MEMARLIĞINDA DEKOR TƏRTİBATININ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6401.01 – Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası

Elm sahəsi: Memarlıq

İddiaçı: **Zəminə Maşalla qızı Rəsulova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Mühit dizaynı" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Memarlıq doktoru, professor<br>**Nərgiz Cavad qızı Abdullayeva** |
| Rəsmi opponentlər: | Memarlıq doktoru<br>**Qlaudinova Mehribanu Bekrimcanovna** |
| | Memarlıq doktoru, dosent<br>**Rahibə Şanxay qızı Əliyeva** |
| | Memarlıq üzrə fəlsəfə doktoru, dosent<br>**Yeganə Çərkəz qızı Ağamalıyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.29 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | Memarlıq doktoru, professor<br>**Gülçöhrə Hüseyn qızı Məmmədova** |
| Dissertasiya şurasının katibi: ____________ | Memarlıq üzrə fəlsəfə doktoru, dosent<br>**Məlahət Tapdıq qızı Eynullayeva** |
| Elmi seminarın sədri: ____________ | Memarlıq doktoru, professor<br>**Səbinə Xalid qızı Hacıyeva** |

# GİRİŞ

**Mövzunun aktuallığı.** Orta əsr memarlıq abidələrimizin araşdırılıb - öyrənilməsi, təhlilləri, elmi əsasları memarlıq tarixində böyük bir irs kimi aktuallığını qoruyub saxlamaqdadır. Dekorun memarlıq formayaranmasında rolu, kompozisiya həlləri və tərtibat üsulları tikililərin növlərindən asılı olaraq özünəməxsus prinsiplə abidələrin tərtibatının yaradılmasına və təyinatından asılı olaraq memarlıq obrazlarının dəyişdirilməsinə imkan vermişdir. Şərq və Qərb mədəniyyətində dekor tərtibatı anlamına fərqli yanaşmanın izah edilməsi dekorun rolunun bir formayaranma elementi kimi baxılmasını, müasir elmi nəzəri əsaslarla əsaslandırılmasını və öyrənilməsini tələb edir.

İslamdan öncə və sonrakı memarlığın tədqiqi onun tipoloji prinsiplərini müəyyənləşdirsə də dekorun formalaşmasına və tərtibat xüsusiyyətlərinə ümumi fonda baxılmasına hələ də ehtiyac duyulmaqdadır.

Elmi ədəbiyyatda dekora memarlıq tikilisinin əsas elementlərindən biri kimi deyil, yalnız tamamlayıcı ikinci dərəcəli bəzək elementi kimi baxılması izlənməkdədir. Dekorun yalnız dini tikililərin bir xüsusiyyəti kimi olması, memarlıq tərtibatında əsas təşkiledici element kimi baxılması tam tədqiq olunmamışdır.

Orta əsr memarlıq tarixinin tədqiqi növlərindən və təyinatından asılı olaraq inkişafı nəticəsində dekorun bütövlükdə təkamül prosesinin keçdiyi mərhələləri daha dərindən və hərtərəfli öyrənilməsi hələ də öz aktuallığını saxlamaqdadır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın məqsədi orta əsr memarlığında dekorun tərtibat xüsusiyyətlərinin müəyyənləşməsi, illərcə elmi təhlillərin daha dərindən öyrənilməsi nəzərdə tutulur. İslamdan əvvəl və sonrakı memarlıq abidələrinin inkişaf prinsipləri İslam sivilizasiyasının mədəni-tarixi kontekstində nəzərdən keçirilməsi dissertasiya işinin məqsədi sayılır.

Tədqiq olunan mövzuda xronoloji olaraq İslam mədəniyyətinin yaranmasından öncə və sonrakı dövrlər əhatə edilərək, dekorun formayaranmada sadə tikililərdən başlayaraq mürəkkəb kompozisiya həlləri ilə tamamlanan planlaşma sistemlərinin inkişafına qədər olan

təkamül istiqamətinə baxılması, müxtəlif inşaat materiallarının və konstruktiv həllərin dekor tərtibatına təsirinin araşdırılması məqsədi qarşıya qoyulmuşdur.

Memarlıq abidələrinin zamanla formalaşmasından asılı olaraq, onların yaranma səbəblərinin və qanunauyğunluqlarının öyrənilməsi tədqiqatın məqsədidir. Həmçinin tarixi şəraitin və abidələrin estetik görünüşünin inkişafının üzə çıxarılması ilə əlaqədar olaraq, orta əsr İslam memarlığının ümumi mənzərəsində hər bir ayrı-ayrı memarlıq dekorunun xüsusiyyəti, əhəmiyyəti və tətbiqinin öyrənilməsi də dissertasiya işində məqsəd kimi qarşıya qoyulur.

**Tədqiqatın metodları** tarixi mərhələlərdə dekorun inkişafını izləmək, orta əsr memarlıq abidələrində dekor sənətinə sistemli baxılmasını modelləşdirməkdən, müasir memarlıq nümunələrində tətbiqi metodologiyasının prinsiplərini açmaqdan ibarətdir. Həmçinin dekor sənətinin insanın baxış nöqtəsinə uyğun qəbul edilməsi prinsipini tətbiq etməklə, müasir dövrdə onun mövcud olduğu məkana uyğun yerləşməsini əsaslandırmaq, qrafik və vizual şəkil, sxemlərə istinad etmək metodu seçilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardır:

- Dekor tərtibatının Şərq və Qərb mədəniyyətində fərqli cəhətlərinin müəyyənləşməsi;
- Müxtəlif mədəniyyətlərin memarlıq abidələrində dekor sənətinin rolunu müəyyən etmək;
- Memarlıq abidələrinin bəzədilməsində istifadə olunan yerli ənənələrin xarakterik cəhətlərini aşkar etmək;
- Orta əsr memarlıq məktəbləri dekorunun inkişafında fərqli və oxşar cəhətlərin araşdırılması;
- Azərbaycanda orta əsrlərə aid və müasir memarlıq terminologiyasına uyğun olaraq orta əsr İslam memarlığının dekor tərtibatında material, rəng, fakturada ənənəvi xüsusiyyətlərin yaranma səbəblərini təhlil etmək;
- Orta əsr memarlığında dekorun ifadə xüsusiyyətlərinin müəyyən edilməsi;
- Dekor tərtibatında sistemli kompozisiya quruluş prinsiplərini təhlil etmək;

- Orta əsr dekor sənəti ənənəsinin müasir dövr Azərbaycan memarlığında tətbiqi yollarını müəyyənləşdirmək.

**Məsələnin qoyuluşu**. Azərbaycan memarlıq tarixi müxtəlif dövrlərin fərqli nəsillərindən olan memar alimlər və tarixçilər tərəfindən tədqiq edilmişdir. Qədim və erkən orta əsrlər S.B.Aşurbəyli, D.A.Axundov, G.H.Məmmədova, Z.Q.Məmmədova, S.X.Hacıyeva, Ş.A.Abbasova. S.Ə.Axundova, S.İ.Allahverdiyeva, R.B.Göyüşov, R.M.Vahidov, V.Q.Əliyev, V.İ.Kərimov, F.A.Məmmədova, A.T.Səlimova, M.N.Nurməmmədov, M.N.Mikayılova və başqaları tərəfindən elmi əsərlərində tədqiq edilmişdir. Orta əsr və müasir memarlıq tarixi isə A.V.Salamzadə, M.Ə.Useynov, L.S.Bretanitski, E.V.Avalov, V.Q.Muradov, C.Ə.Qiyasi, R.B.Əmənzadə, R.Ş.Əliyeva, V.A.Cəfərova, A.K.Şərifova, G.Qəmbərova, T.Ş.Bəkirova, M.T.Eynullayeva, T.R.Əbdülrəhimova kimi bir çox Azərbaycan, M.S. Булатов, V.Varonina, Dist, Kresvel, Korbendo İv, Yusif bəy Babapur, Mehsa Xorezmi, Karol Bir, Atafeh Sekofte kimi xarici ölkə tədqiqatçıları tərəfindən araşdırılmışdır.

**Tədqiqatın obyekti.** Azərbaycan orta əsr memarlıq məktəblərinin ayrı-ayrılıqda coğrafi ərazi sərhədləri təhlil olunaraq, dissertasiya obyekti kimi seçilmişdir. Eyni zamanda orta əsr üçün səciyyəvi olan monumental memarlıq tikililərin ayrı – ayrı coğrafi ərazilərdə müəyyən mənada hər birinin dekor tərtibat xüsusiyyətlərinin öyrənilməsinə istinad edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Təhlillərdə ilk dəfə bütün memarlıq məktəblərində dekor sənətini formalaşdıran faktorlar üçün təsnifat cədvəli tərtib edilmişdir.

Şəmkir minarəsinin mövcud olan fotosuna əsasən ilk dəfə memarlıq layihəsi işlənilmişdir.

İlk dəfə memarlıq abidələrində müstəvilərin işıq-kölgə vasitəsi ilə yaradılan zəngin relyefli fon – kompozisiya elementinin xüsusi rolu tədqiq olunmuşdur.

Memarlıqda dekor yalnız tikililərin bəzək elementi aspektində deyil, ayrıca sənət növü kimi İslam sivilizasiyasının bədii mədəniyyəti kontekstində nəzərdən keçirilmişdir.

Dekor sənətinin eyni zamanda İslamın mənəvi dəyərlər sistemi

kimi estetik mühitin yaratmasına, ifadə dilinin təhlil olunmasına yeni yanaşma sərgilənmişdir.

Elmi təcrübədə ilk dəfə olaraq orta əsr Azərbaycan memarlıq dekor sənətinə tədqiqatçı nöqteyi-nəzərindən kompleks və sistemli təhlilləri ilə müraciət edilir. Onun İslam incəsənətinin, xüsusi memarlığın inkişafının ən mühüm mexanizmi və hərəkətverici qüvvəsi olması haqqında müddəa açıqlanır.

Dissertasiyada araşdırma əvvəlki tədqiqatlardan yeni ifadə və materialın sistemləşdirilməsi ilə fərqlənir. İlk dəfə olaraq İslam memarlıq abidələrinin inkişafına mədəni - tarixi kontekstdə İslam sivilizasiyasında "tarixi fon" yaradılması kimi təqdim edilir.

Azərbaycan orta əsr memarlıq məktəblərinin fərqli material və dekor istifadəsinə sistemli və müqayisəli baxılır.

Memarlıqda dekor sənətinin quruluş və bədii təkamülünü orta əsr İslam mədəniyyətinin mürəkkəb və müxtəlif istiqamətli inkişafının əsası kimi izləməsinə cəhd edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyanın materialları, təhlil – tədqiq nəticələri müxtəlif mütəxəssislər tərəfindən müraciət olunaraq, müasir dövr incəsənətində dekor xüsusiyyətlərinin qanunauyğunluqlarından istifadə edərək, memarlıq bina və qurğularına tətbiq edilməsi məqsədi irəli sürülmüşdür. Həm iki, həm də üç ölçülü dekor sənətinin müasir materiallarla tətbiqinə nail olunmasının özünəməxsusluğunun mümkünlüyü tövsiyyə olunmuşdur.

Bu dissertasiya işi gələcəkdə Azərbaycan orta əsr memarlığının elmi tədqiqat işləri və araşdırmaları üçün, həmçinin ali və orta tədris müəssisələrində memarlıq tarixi mövzuları üçün istinad ediləcəyi bir elmi işdir.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları Azərbaycan Memarlıq və İnşaat Universitetinin (Azərbaycan) elmi seminarlarında, beynəlxalq konfranslarında, MDB ölkələri universitetlərində keçirilən simpoziumlarda dəfələrlə elmi əsər kimi, konfranslarda elmi məruzə mətni ilə təqdim olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Memarlıq və İnşaat Universiteti, "Mühit dizaynı"

kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işində Azərbaycan orta əsr memarlığında mövcud olan beş memarlıq məktəbi üzrə dekorun tətbiqi xüsusiyyətlərini memarlıq abidələri timsalında nəzərdən keçirilərək təsnifat cədvəli hazırlanmişdır.

Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və illüstrasiyalardan (cədvəllərdən) ibarətdir. İşin tərkibində cizgi, rəsm, foto materiallardan ibarət illüstrativ materiallar təqdim olunur. Tədqiqatın ümumi məzmununu kompüter yığımının (282.171 işarə) və 85 illüstrasiya səhifəsində öz əksini tapmışdır. Giriş – 11.591 işarə, I Fəsil – 75.082 işarə, II Fəsil – 96.704 işarə, III Fəsil – 93.175 işarə, dissertasiyanın nəticə hissəsi – 5619 işarə və istifadə olunmuş ədəbiyyat siyahısı – 13674 işarə ilə müəyyən edilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın elmi yeniliyi, məqsəd və vəzifələri müəyyən edilir, müdafiəyə çıxarılan əsas müddəalar təqdim olunur, işin elmi – nəzəri metodoloji əsasları şərh olunaraq, xronoloji ardıcıllığı müəyyənləşdirilir, dissertasiyanın işarə ilə ümumi həcmi haqqında məlumat verilir.

**Fəsıl I. "Memarlıqda dekor sənətinin tarixi inkişaf mərhələləri"** adlanan fəsil üç yarımfəsil, üç yarımbölmədən ibarətdir.

### 1.1. İslama qədərki və erkən İslam dövrü dekor sənətinin yaranması (IV-VII əsrlər)

Qədim diyarımızın minilliklər boyunca çoxşaxəli mədəniyyəti və tarixi haqqında məlumatları, günümüzə qədər qorunaraq, gəlib çatan tarixi memarlıq abidələri, qayaüstü rəsmlər və arxeoloji qazıntılar vasitəsilə əldə edirik.

Alban memarlığında VII əsrə qədər memarlıq tikililərində

dekorativ bəzəklərə az təsadüf edilsə də, həddən artıq orijinal tərtibatlı olurdu və rast gəlinən dekor fraqmentləri, daş üzərində oyma sənətinin yüksək səviyyəsindən xəbər verirdı. Məhz Mingəçevir məbədində aşkarlanan memarlıq detallarını, relyefli Alban kitabələri ilə bəzədilmiş mehrab xaçının daş bazasını və ya sütun kapıtellərini buna nümunə göstərmək olar.

Mingəçevir bölgəsində aparılmış arxeoloji qazıntılar zamanı od məbədinin üzərində tikilən, IV-VII əsrləri əhatə etdiyi müəyyən edilən kilsə kompleksi aşkarlanmışdır. Belə ki, tədqiqatçı alim, prof. G. Məmmədova bu abidənin tikintisində politeist elementlər mövcud olduğuna görə xristianlıqdan əvvəl III əsrin ikinci yarısına aid edildiyi fikrini irəli sürmüşdür. Şimal və cənub divarlarında altı çıxıntının olması, ibadət edənlərin yəqin ki, burada oturması üçün nəzərdə tutulmuşdur. İkinci məbəd xristianlığın bütün şərtlərinə cavab verərək, düzbucaqlı formalı abidəyə sonradan absida əlavə edilmişdir. Altar hissədə aşkarlanan oyma daş detalları və relyefli daşın kapitel olması fikirlərini prof. G. Məmmədova təkzib edərək, söyləmişdir ki, “daşın ölçülərinə görə onun sütun başlığı olması qeyri-mümkün, xaç altlığı olması ehtimalı daha böyükdür”.

Həmçinin tədqiqatçı alim D. Axundov da araşdırmalarında cizgilərinə əsasən simvolik təsvirlərlə dekorlanmış bu daşın xaç altlığı olması fikrini təsdiq etmişdir.

İnteryerində aşkarlanmış suvaq üzərində bitki boyaları ilə işlənmiş divar naxışları bu dövrün dekor tərtibatının özəlliklərindən xəbər vermişdir.

## 1.2. Memarlıqda dekor sənətinin formalaşma mərhələləri (XI-XV əsrlər)

Araşdirmalara görə sənət abidələri üzərində rast gəlinən dekorlar aşağıda adları sadalanan bəzi ornament növlərinin köməyilə ərsəyə gəlmişdır. Lakin bir memarlıq abidəsi üzərində sadalanan bu ornament növlərinin hamısının eyni vaxtda tətbiqini görmək mümkün deyildir. Bunlar:

1. Həndəsi ornamentlər
2. Nəbati ornamentlər
3. Zoomorf və əfsanəvi mifik obrazlar.

4. Süjetli-nəqledici təsvirlər.

5. Müxtəlif formalı yazılardan kompozisiya quruluşlu ornamentlər.

6. Emblem və rəmzi mahiyyətli ornamentlər[1].

### 1.3. Orta əsr memarlığında dekorun bədii tərtibat xüsusiyyətlərinin inkişafı.

İlk öncə orta əsr Azərbaycan memarlığının inkişafında Albaniya monumental xristianlığının xüsusi rolu vurğulanır.

Memarlıq abidələrinin forma və səthlərinin dekor tərtibatında dolğun elementlərlə örtük kimi tətbiqində əsas səbəb bir çox mənbələrdə "Allah boşluqları sevmir", "ornament-dekorlar dolğun olmalıdır" kimi fəlsəfi fikirlər anlamına gəlir. Səth üzərində nizamlı, ritmik, simmetrik kompozisiyalar kimi yer alan və paylanılan dekor elementlərinin kompozisiya quruluşlarında mərkəz adətən bir neçə elementin birləşməsindən alınan boşluq kimi vurğulanırdı. Məhz bu boşluqlar, allahı xatırlatmaq məqsədilə, həmçinin kompozisiyanın mərkəz elementi kimi diqqəti cəlb edir, eyni zamanda ornamentlərin aparıcı elementinə çevrilirdi. Bütün ornamentlərin boşluq hissələrində şüuraltı olaraq kainatın mərkəzi kimi allahın mövcudluğunu təsəvvürdə canlandırmaq kimi qəbul edilirdi. Bu səbəbdən də orta əsr memarlığında məhz dekor tərtibatına görə seçilən yaradıcılıq böyük rol oynamışdır. Abidələrin ümumi obraz həllində xüsusi təntənəlilik və rəng variantlarının əlaqələri tətbiq edilərək, orta əsr vizual dilini formalaşdırmaqla, daha maraqlı və təkrarolunmaz görünüş yaradırdı.

#### 1.3.1. Dini tikililərdə dekor tərtibatının inkişafı (minarələr, baştağlar, günbəzlər, mehrablar)

Monumental binaların minarələri, baştağları və günbəzləri birlikdə "yığıcı qüvvəyə" malik olan vizual vurğusu, şəhərlərin bütün kompozisiya strukturu və bədii obrazinin dominant kompozisiyasına çevrilmişdir. Həmçinin dekor tərtibatına da əsasən minarələrdə, giriş

---

[1] Əfəndi R., Əfəndi T. Azərbaycan bəzək sənəti. Bakı: 2002, 80s.

baştağlarında, günbəzlərin səthlərində və barabanlarında rast gəlinirdi.

**Minarələrdə** dekor qavranılan ümumi vizual obrazda, əsasən istifadə edilən tikinti və rəng tərtibatlı materiallarının səth müstəvisi üzərində yaratdığı ritmik düzülüşdə, şərəfə, şərəfə altı stalaktit və kufi yazı qurşaqlarında cəmləndiyini vurğulamaq lazımdır.

Qeyd edək ki, bu günə qədər Şəmkir minarəsinin heç bir memarlıq cizgi layihəsi işlənilməmiş, sadəcə hər dəfə nəzəri təhlillər verilmişdir. Tədqiqat işində ilk dəfə Şəmkir minarəsinin memarlıq cizgi layihəsi işlənmişdir. Bütün nəzəri təhlillərdən sonra onun plan ölçüləri, hündürlük nisbətləri, kəsim və ümumi obrazına yeni layihə təklifi verilmişdir. Memarlıq layihələndirilməsində planda üç ədəd həcm vardır. O həcmlədən birincisi kub şəkilli olub ölçüləri 3600 x 3600 x 3600 mm, ikinci altıbucaqlının diametri 3000 mm, üçüncü dairənin diametri 1600 mm-dir. Tərəfimizdən kəsim, hündürlük, təsvirlərdən bəlli olan ən hündür yerdə tağlar göstərilmişdir. Tarixdən bəlli olan giriş qapı və ona yaxın dayanan insanın ölçüsü bu layihənin işlənilməsində miqyas tapmağa yardımçı olmuşdur.

Ta qədim zamanlardan başlayaraq dini, xatirə və müdafiə tikililərində giriş daha çox diqqət ayrılan tərkib hissə hesab edildiyindən bunun iki növü formalaşmışdır: **baştağlar və portallar**.

Memarlıq üzrə tədqiqatçı alim Rayihə Əmənzadə baştağları aşağıdakı qruplarla xarakterizə etmişdir: “Taxça”, “üz”, “haşiyə”, “həcm-məkanlı”, “ayrıca dayanan”, “eyvan”, “darvaza”, “balaxana ilə birləşdirilmiş” baştağlar[2].

**Günbəzlərin** yaranma tarixi daha qədimlərə e.ə III minillikdə Mesopatamiya memarlığına gedib çatır. Zamanla böyük inkişaf yolu keçib, təkmilləşən günbəzlər iri ölçülü səthlərin örtülməsində əvəzsiz idi. Sasanilər dövründə günbəzlər daha da inkişaf edərək, müxtəlif tikililərə tətbiq edilmişdir. Orta əsrlər dövründə Şirvan memarlıq məktəbinə aid günbəzlərin tərtibatı özünün sadə - dekorsuz forması ilə yadda qalırdı. Digər dörd məktəbə məxsus günbəzlərin əksəriyyətinin səthinin mavi, göy, firuzəyi rəngli fonu ya sadə -

---

[2] Əmənzadə R.B. Azərbaycan memarlığında baştağlar. Azərbaycan Dövlət Nəşriyyatı-1995, 78 s.

dekorsuz, və ya səthi rəngli kərpiclər vasitəsilə həndəsi, nəbati naxışlarla dekorlanmışdır.

Məkkə-Kəbə evinin istiqamətini müəyyən edən, qiblə divarı və **mehrab** bir-biri ilə əlaqəli iki; konstruktiv və interyerdə dominant element olmaqla çox vaxt məscidin kompozisiya oxu üzərində yerləşmişdir. Mehrablar İslam dini qəbul ediləndən ta bu günə qədər öz əhəmiyyətini daim qoruyub, saxlamışdır.

### 1.3.2. Xatirə tikililərində dekor tərtibatının inkişafı.

Azərbaycan türbələrinin təsnifatını tədqiqatçı alim A. Salamzadə "İfadə olunmamış qülləli, səkkizvəchli türbə kimi" səciyyələndirmişdir[3]. XI-XII əsrlər qülləvari türbələrin inkişafının zirvəsi hesab edilməyi, bir növ bu abidələrin dekor tərtibatında da ozünü əks etdirmişdir. Abidələr üzərində yer alan dekorlar yenə də zaman və məkandan asılı olaraq dəyişikliklərə məruz qalırdı.

Dekorlar əsasən abidələrin gövdəsinin səthlərində, giriş baştağlarında, və frizlərində yerləşdirilirdi. Dekoru təşkil edən ornamentlər həndəsi, nəbati, zoomorf və epiqrafik yazılardan (ən çox kufi yazı) ibarət idi. Bu ornamentlərin bir-birilə qarşılıqlı əlaqəsi nəticəsində abidənin səthləri bədii ifadəli, zəngin tərtibatlı görünüş yaradırdı.

### 1.3.3. Mülki tikililərdə dekor tərtibatının inkişafı

Mülki tikililər olan **körpülər** mədəniyyətimizin mühüm bir hissəsini təşkil etməklə yaranma tarixi çox güman ki, qədim dövrlərə qədər gedib çıxır. Azərbaycan ərazisinin ticarət yolları üzərində yerləşməsi, hər gün çoxlu karvanların uzaq məsafələri qət edərək bu körpülər üzərindən hərəkət etməsi təlabatın çox böyük olduğunu nümayiş etdirirdi.

**Qalalar** strateji əhəmiyyətli ərazilərdə yerləşməklə özünün formasına, plan-məkan həllinə görə ətraf mühitə gözəl görüntü bəxş etmişdir.

İlk nümunəsi təqribi dörd min il əvvəli əhatə edən karvan və

---

[3] Саламзаде А.В. .Архитектура мовзолеев Азербайджана XII-XV вв. ААО. стр.237-243.

yolçuların istirahəti üçün nəzərdə tutulmuş ərazilərdə hökmdarlar və imkanlı şəxslər tərəfindən **karvansaray-** mehmanxana tikililəri inşa edilmişdir. Böyük kompleks təşkil edən bu tikililərin tərkibinə istirahət üçün otaqlar, yeməkxanalar, minik və yük heyvanları üçün tövlələr, axurlar, anbarlar, dükanlar daxil idi.

**Fəsil II "Azərbaycan orta əsr memarlıq məktəbləri üzrə dekorun tətbiqi xüsusiyyətləri"** adlanır və altı yarımfəsildən ibarətdir.

**2.1. Aran memarlıq məktəbi üzrə dekor xüsusiyyətləri** Görkəmli alim, professor Cəfər Qiyasi orta əsrlər dövründə Azərbaycanın baş şəhərləri ətrafında formalaşan beş yerli bədii memarlıq məktəbi müəyyən etmişdir. Bunlar Aran, Naxçıvan - Marağa Qəzvin - Həmədan, Şirvan [4] və Təbriz [5] memarlıq məktəbləridir.

Aran memarlıq məktəbi deyərkən coğrafi bir sərhəd təyin olunmasını nəzərə alaraq, bu məktəbə Gəncə, Bərdə, Beyləqan və Şəmkir şəhərləri aid edilmişdir. Azərbaycanın şimal-qərb bölgəsində Kür və Araz çaylarının arasındakı ərazidə yerləşən qeyd olunan bu tarixi şəhərlərin inkişafı, XI-XIII əsrlərdə mərkəzi Bərdə hesab edilən ilk memarlıq məktəbi olan Aran memarlıq məktəbinin yaranma və formalaşmasına bir təkan olmuşdur. Bu məktəbin özünəməxsus xüsusiyyətləri abidələrinin möhtəşəmliyi, iri və müxtəlif səviyyəli hörgülər zamanı tikinti materialı olan kərpic, əhəng daşı, kobud doğranmış cay daşından istifadə edilməsindədir. Çox təəssüflər olsun ki, baş verən zəlzələlər, feodal hərc-mərcliyinə görə bu abidələrin az bir qismi bu günümüzə qədər gəlib çatmışdır.

Qarabağlar türbəsinin analoqu hesab edilən Bərdə türbəsinin (Nüşabə qalası, Allah-Allah türbəsi), üzərindəki kitabədən 1322-ci ildə Naxçıvanlı memar Əyyub əl-Hafiz oğlu tərəfindən tikildiyi bəlli olur. Uzadılmış nisbətli, silindrik formalı gövdənin səthi üzərində firuzəyi kaşılı kərpiclə, yaxşı cilalanmış adi kərpicin bir-birini

---

[4] Qiyasi C.Ə. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 256 s.
[5] Гияси Дж.А. Тебризская архитектурная школа (XIII-XVIII вв.) Автореф. дисс…канд. архитектуры. Б., 1978.

izləməsindən yaranan "Allah" kəlməli kompozisiyalar, sanki abidənin dinamik "köynək" geyindiyi təəssüratını yaradır. Bu yazıların nəhayətləndiyi frizdə ensiz zolaq həndəsi ornamentlərdən firuzəyi kaşı fonunda nəsxlə yazılmış Qurani-Kərim ayələrinin qalıqlarına bir keçid vardır. Frizin üzərindəki karniz kimi stalaktit qurşağı oyuqlarının səthi ağ-süd, firuzəyi və qara rəngli kaşı mozaika ilə bəzədilmişdir.

Abidəyə giriş baştağların "taxça" növünə aid edilərək şimaldan və cənubdan olmaqla iki ədəddir. Şimal baştağı nisbətən böyük ölçülü, daha təntənəli, cənub baştağı isə formanı təkrar etməklə daha kiçikdir. Şimal baştağı önə çıxmış forması və ifadəli nisbətinə görə Azərbaycan memarlığında ən gözəl baştağ hesab edilmişdir. Rəngarəng ornamentlərin bolluğu, işıq-kölgə oyunu daha maraqlı tərtibat yaratmışdır. Giriş hissəni çərçivəyə alan zolaq boyunca kufi xətlə Qurani - Kərimdən götürülmüş ayələr yer almışdır. Firuzəyi fon üzərində terrakota çox gözəl qavranılırdı. Gözəl naxış formalı rəngarəng mozaika oyma üsulu ilə hazırlanmışdır. Qeyd edək ki, abidənin gövdə hissəsinin bərpa yenidənqurma işləri müəyyən qədər uğurlu alınsa da, təəssüflə qeyd edək ki, konusvarı örtük hissəsinin bərpası qeyri peşəkar aparılmışdır.

## 2.2. Naxçıvan-Marağa memarlıq məktəbi üzrə dekor xüsusiyyətləri

Naxçıvan - Marağa memarlıq məktəbinin yaradıcısı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yüksək nəaliyyətləri bu məktəbin çiçəklənməsində və yaratdığı sənət əsərlərinin beynəlxalq miqyasda tərənnüm etdirilməsində əsas rol oynamışdır. Bu məktəbin arealını Naxçıvan, Salmas, Mərənd, Urmiya və Marağa şəhərləri təşkil etmişdir.

XII əsrdə yeni formalaşmağa başlayan Naxçıvan-Marağa memarlıq məktəbinə aid abidələrin özünəməxsus xüsusiyyətləri hesab edilən üzlük bloklarla üzlənmə, hər tərəfdən müxtəlif - təkrarlanmayan fasad həlli, həndəsi ornamentlərlə sistemli dekor ifadəsi artıq bu inkişafın sədasını əks etdirirdi. Lakin naxış kompozisiyalarında rəsmlərin xırdalanması, şirəli kərpiclərin dekor tərtibatına tətbiqi Naxçıvan-Marağa memarlıq məktəbinin üslub

xüsusiyyətlərini daha da zənginləşdirmişdir.

Əcəmi Naxçıvani yaradıcılığında xüsusi yeri olan Yusif ibn Küseyir türbəsinin çadır örtüyü şəhərin müxtəlif istiqamətlərindən vizual informasiya kimi öz yerini bəlli edir. Çox maraqlı, incə quruluşlu, zəngin dekor tərtibatı ilə yaddaşlara həkk olunmuş abidə təəssüflər olsun ki, son bərpa yenidənqurma müdaxiləsi nəticəsində öz ilkin görünüşünü tamamilə itirmişdir. Giriş istisna olmaqla digər yeddi səthin dekorunu təşkil edən "girih" naxışları boz rənglə boyanmış, dekorun yerlikləri isə məhlulla doldurulmuşdur. Nəticədə səthlərin relyefi tamamən itmişdir. Yaxşı olardı abidənin yenidənqurması sırf bərpaçı mütəxəssislərin iştirakı ilə həyata keçirilərdi ki, 800 il ayaqda dayanmış bu cür memarlıq əsərinə qeyri peşəkar yanaşma sərgilənməsin.

Əcəmi Naxçıvani yaradıcılığının növbəti şah əsəri olan Möminə xatun türbəsinin gövdəsi eksteryerdə on bucaqlı prizma, interyerdə isə dairəvi formalıdır. Xarici səthə demək olar ki, dekordan köynək geyindirilmişdir. Yəni abidə üzərində elə bir yer tapmaq mümkün deyil ki, orada həndəsi naxışların fonunda gəclə nəbati naxışlar oyulmasın. Qüllənin daxili divarları isə sadə tərtib olunaraq dekor izlərinə rast gəlinmir, təkcə günbəzin səthində perpendikulyar istiqamətdə olaraq yerləşən dörd dairəvi medalyon istisna olmaqla. Gəc üzərində nəbati fonda kufi xətli ülduzvarı kompozisiyaların hər birində "Allah" kəlməsi yazılmışdır. Lakin medalyondakı kitabələr və xonçaların bu günə kimi oxunması mümkün olmamışdır.

Qeyd edək ki, Naxçıvan-Marağa memarlıq məktəbinə məxsus digər körpülərin də dekorativ tərtibatına nümunə olaraq biraşırımlı Dədəli körpüsünü (Şərur rayonu, Arpaçay XIII əsr), beşaşırımlı Aza körpüsünü (Ordubad rayonu, Aza kəndi Gilançay, sifaraşçi Şah Abbas 1587 – 1629 cu illər), biraşırımlı piyada Qazançı-Qozbel körpüsünü (Culfa rayonu Qazançı kəndi. Əlincəçay XVI-XVII əsrlər), biraşırımlı Ləkətağ körpüsünü (Culfa rayonu Əlincə çay, XVI-XVII əsrlər), ikitağlı Bist körpüsü-I (Ordubad rayonu, Bist kəndi, sifaraşçi Şah Abbas, XVII əsr), birtağlı Bist körpüsü-II (Ordubad rayonu, Bist kəndi, Nəsirvaz çayı XVII-XVIII əsr) göstərə bilərik.

## 2.3. Qəzvin-Həmədan memarlıq məktəbi üzrə dekor xüsusiyyətləri

Azərbaycanın cənub - şərq hissəsində formalaşan Qəzvin - Həmədan memarlıq məktəbi arealını Zəncan, Qəzvin, Həmədan Sultaniyyə və Sonqur şəhərləri təşkil etmişdir. Bu şəhərlər içərisində Həmədan Səlcuqlar dövründə böyük nüfuza malik idi.

Qəzvin - Həmədan memarlıq məktəbi abidələrinin tikintisi bişmiş kərpiclə həyata keçirilərək, səthi həndəsi naxışlı kərpiclər, rəngarəng mozaik kaşı lövhələr və gəc üzərində oyulan nəbati naxışlarla dekorlanırdı.

Qəzvin-Həmədan memarlıq məktəbinin XI-XII əsrlərə aid edilən məscidləri mehrablarının daha zəngin dekorlanması ilə xüsusi fərqlənirdi.

## 2.4. Şirvan memarlıq məktəbi üzrə dekor xüsusiyyətləri

Orta əsr Azərbaycanın şimal-şərqində formalaşan Şirvan memarlıq məktəbi arealını Dərbənd, Bakı və Şamaxı şəhərləri təyin etmişdir. Şirvan memarlıq məktəbinə aid abidələrin məxsusi xüsusiyyətləri: bina və komplekslərin formalarının konstruksiyaları ilə sıx bağlılığı, sadə-asimmetrik kompozisiya quruluşlu olmasıdır. Həmçinin, memarlıq kompozisiyasının təşkilində binaların daxili məkanlarına məntiqi uyğunluğu, yəni, interyer və eksteryeri arasında birliyin mövcudluğu, memarlıq hissələrinin və dekorun yüksək bədii obrazı və daş üzərində oyma, nəbati naxışlı olmasıdır.

Əsasən tikintisində əhəng daşı materialından istifadənin üstünlük təşkil etdiyi bu ərazilərdə tikili daşla üzləndikdən sonra səthində memarlıq detalları və dekor elementləri oyma üsulu ilə tətbiq edilirdi. Həmçinin ornamentli kompozisiyaların özünəməxsusluğu, işıq-kölgə təzadına hesablanmış hamar səthləri çoxplanlı hörmə naxışlarla fərqlənirdi. Bildiyimiz kimi bu tərtibata Şirvan memarlıq məktəbindən fərqli olaraq digər məktəblərdə rast gəlinmir. Abidələrin interyerinin dekor tərtibatına gəldikdə isə eksteryerlə vəhdət təşkil etdiyinin şahidi oluruq. Lakin bəzi hallarda digər məktəblərdə aktual olduğu kimi burada da gəc üzərində oyma üsulu tətbiq edilirdi.

Ümumiyyətlə, Şirvan memarlıq məktəbinə məxsus olan dini

və xatirə tikililərinin eksteryer tərtibatında dekor və yazı qurşaqları yox və ya cüzi miqdardadir. Burada relyefli müstəvilərin işıq-kölgə həlli və yaxşı yonulmuş üzlük materialı olan əhəng daşları böyük əhəmiyyət daşıyır.

### 2.5. Təbriz memarlıq məktəbi üzrə dekor xüsusiyyətləri

XIII-XIV əsrlərdə dekor, ornament və rəng həlli sahəsində qazanılan yüksək nəaliyyətlər Təbrizli sənətkarların İslam Şərq aləmində özlərini kifayət qədər sübut etdirməyə bir növ şərait yaratmışdır.

Təbriz memarlıq məktəbinin inkişafinın bütün mərhələlərində, həmçinin üzlük materialın növündən asılı olmayaraq (daş, keramıka, kərpic, ağac, kaşı) geniş tətbiq edilirdi. Qeyd edək ki, XIV əsrin I yarısınadək daha çox həndəsi ornamentlər aktual idi. Buna səbəb standart ölçülü kərpiclərin imkanının geniş olması və həndəsi ornamentlərə uyğunlaşdırılaraq həm üzlük-dekor, həm də inşaat materialı kimi səthlərə daha rahat tətbiq olunması ilə izah oluna bilər.

Qeyd edək ki, XV əsr Təbriz memarlığında saray tikililəri uğurla inkişaf edirdi. Memarlıq dekorunda müəyyən dəyişikliklər olmuş, dekorun palitrası yaşıl, qırmızı, sarı və başqa rənglərlə zənginləşdirilmişdir. Abidələrin həm interyer, həm də eksteryerinin dekor tərtibatı əsasən yığma kaşı mozaika ilə həyata keçirilirdi.

### 2.6. Azərbaycan orta əsr memarlığında dekor tərtibatı xüsusiyyətlərinin təsnifatı

Təhlillər göstərir ki, Azərbaycan orta əsr memarlıq məktəblərinin hər birində həm oxşar, həm də fərqli dekor tərtibatı xüsusiyyətləri mövcud olmuşdur. Nəzərə alsaq ki, elmi təhlillər memarlıq məktəblərinin hər biri üçün ayrı - ayrılıqda tədqiq edilmişdir, ona görə də bu dövrün memarlığında dekor sənətinin xüsusiyyətlərini bütünlüklə açıb, əsas nəticələrin əldə edilməsinə nail olmaq üçün təsnifat (klassifikasiya) cədvəlinin tərtib edilməsi metodologiyasının seçilməsi məqsədə uyğun görülmüşdür.

Təsnifat cədvəli əsasən hər bir orta əsr memarlıq məktəbinə vahid göstəricilər cədvəlinin tərtibatı ilə işlənmişdir. Belə ki,

memarlıq məktəblərinin hər biri – dövrü, coğrafi ərazisi, abidənin adı, müəllifi, sifarişçisi, kompozisiya quruluşu (simmetrik, asimmetrik), elementlərdə dekor, baştağların növləri, ornament növləri (həndəsi, nəbati, zoomorf, epiqrafik yazı), dekorlarda isə formalar (müstəvi, həcmli-relyefli), materialı, rəng xüsusiyyətləri ilə tərtib olunmuşdur.

**Tərtib etdiyimiz "Azərbaycan orta əsr memarlığında dekor tərtibatı xüsusiyyətlərinin təsnifatı" cədvəlindən alınan ən əsas nəticələr:**

**1.Aran memarlıq məktəbi**

a) plan quruluşu: simmetrik

b) dekor: relyefli, həndəsi, zoomorf, epiqrafik yazı (kufi, süls nəsx)

c) memarlıq elementi – baştağlar; haşiyə, taxça, eyvanlı

d) materiallar: bişmiş kərpic, tuf daşı, əhəng daşı, təbaşirə bənzər ağ daş, çaydaşı, kötür daş, kaşı, bazalt plitə

e) ümumi rəng: qırmızı (kərpic), göy, firuzəyi

**2. Naxçıvan Marağa memarlıq məktəbi**

a) plan quruluşu: simmetrik

b) dekor: relyefli, həndəsi, nəbati, epiqrafik yazı (kufi,)

c) memarlıq elementi – baştağlar; üz, taxça, həcm məkanlı, ayrıca dayanan

d) materiallar: bişmiş kərpic, gəc, kaşı

e) ümumi rəng: qırmızı (kərpic), göy

**3. Qəzvin Həmədan memarlıq məktəbi**

a) plan quruluşu: simmetrik

b) dekor: relyefli, müstəvi, həndəsi, nəbati, zoomorf, epiqrafik yazı (kufi, nəsx)

c) memarlıq elementi – baştağlar; üz, haşiyə, həcm məkanlı

d) materiallar: bişmiş kərpic, gəc, kaşı, ağac, but daşı, yonulmuş çapma daş, qırmızımtıl yerli daş, tuf daşı

e) ümumi rəng: qırmızı (kərpic), göy, mavi, firuzəyi,sarı

**4. Şirvan memarlıq məktəbi**

a) plan quruluşu: asimmetrik

b) dekor: relyefli, həndəsi, nəbati, zoomorf, epiqrafik yazı (kufi, nəsx, süls)

c) memarlıq elementi – baştağlar; üz, eyvanlı, həcm məkanlı, darvaza, balaxana ilə birləşdirilmiş

d) materiallar: əhəng daşı, kaşı az miqdarda

e) ümumi rəng: ağ sarimtıl, qızılı sarımtıl, boz sarımtıl

**4.Təbriz memarlıq məktəbi**

a) plan quruluşu: simmetrik

b) dekor: müstəvi, relyefli, həndəsi, nəbati, epiqrafik yazı (kufi, süls, nəstəliq, ruqə)

c) memarlıq elementi – baştağlar; taxça, eyvanlı, həcm məkanlı, balaxana ilə birləşdirilmiş baştağ

d) materiallar: şirəli və bişmiş kərpic, mərmər, kaşı, gəc

e) ümumi rəng: qırmızı, göy, sarımtıl, ağ, qəhvəyi.

**Fəsil III "Azərbaycan orta əsr memarlığında dekorun rolu"** adlanır və üç yarımfəsildən ibarətdir.

**3.1. Orta əsr memarlığında dekorun ifadə xüsusiyyətləri (rəng, material, epiqrafik yazılar)**

**Rəng** memarlıqda xarici və daxili fəzanın tərtibatında ifadəli vasitələrdən biridir. Rəng simvollarının mənasının müəyyən edilməsi, incəsənətin sosial, coğrafi və dünyagörüşünün əsaslarına uyğun müxtəlif mərasimlərin təşkilinə görə müəyyən edilmişdir. Tikililərin kanonlarının və rəng simvolikasının birləşməsində dini təsəvvürlər böyük rol oynamışdır. Dünya dinləri içərisində məhz İslam dövlət və hüquqla sıx bağlıdır. Müsəlman ümmətini təşkil edən xalqlarda rəngin qavranılmasında vahid qanun yox idi, bu da incəsənətdə obyektiv və subyektiv şərtlərlə əlaqədar idi.

Memarlıq məktəbləri arasında ən zəngin rəng dünyası Təbriz memarlıq məktəbindədir. XIII - XIV əsrlərdə rəng zənginliyi daha da inkişaf etməyə başlamışdır.

Orta əsrlər dövründə təbii materialın özünə tabe etdiyi rəngi, müasir memarlıqda tam əks olaraq materialın rəngə tabe olması əvəzləmişdir.

Bir çox xüsusiyyətləri özündə cəmləyən bişmiş kərpic XI-XIII əsrlərdə Azərbaycanda **tikinti material** kimi geniş istifadə edilmişdır. Yüksək atmosfer təsirlərinə davamlılığına, faktura, rənginə və dekorativ tərtibatına görə tikinti materialı kimi əvəzsiz

hesab edilirdi. Kərpiclər təxmini 20 x 20 x 5 sm ölçüdə istehsal edilirdi. Tikinti başa çatan kimi üzləmə işləri həyata keçirilirdi.

**Epiqrafik yazılar.** Təhlillərimizdə əsasən müəyyən edilmiş altı ornament növünün beşinci bölməsində yer almış “Müxtəlif formalı yazılardan kompozisiyalı ornamentlər”, yəni epiqrafik yazılar, kitabələrin formalaşma prinsiplərini nəzərdən keçirək.

1. Kufi yazı (VII əsr Kufə şəhəri, müəllif imam Əli) kvadrat formalı olub, hərflər üfüqi və şaquli xətlərin köməyi ilə yazılırdı.

2. Süls yazının (X əsr müəllif Əbu Əli Məhəmməd ibn Muğla) hərfi mənası “üçdə bir” deməkdir.

3. Nəsx yazının (XII əsr, müəllif ibn Muğla Şirazi) hərfi mənası “üzünü köçürmək” “ləğv etmək”, “şəklini dəyişmək” kimi ifadə olunur.

4. Reyhani (XI əsr, müəllif Əli ibn Hilal, xəttat ibn Muğlanin tələbəsi) Süls xəttə çox bənzər olsa da, bəzi özünəməxsus xüsusiyyətlər onları fərqləndirirdi.

5. Toqi yazı (XIII əsr, Bağdad, müəllif şair və xəttat Əbülfəzl Dinəvəri,)“Hökmdar fərmanı, möhürü, yazısı” kimi tərcümə edilir. Surətli yazı xətti hesab olunur.

6. Ruqə yazının (XIII əsr, müəllif şair və xəttat Əbülfəzl Dinəvəri, Bağdad) hərfi mənası “məktub” və “dəri parçası” deməkdir.

7. Nəstəliq (XIV əsr. Müəllif Mir Əli Təbrizi) Nəsx və təliq xətlərinin birgə işlənməsindən yaranan yazı növüdür.

8. Mühəqqaq (Abbasilər vəziri, fars əsilli İbn Möhlə 886—940) Doğru yazı növü “müntəzəm və möhkəm” mənasını verərək, hərfləri süls ilə müqayisədə daha böyükdür.

VI-XVII əsrləri əhatə edən daş üzərində oyma dekorun ən gözəl nümunələri qəbirüstü abidələrdə təsadüf edilmişdir. Azərbaycan ərazisində bir neçə qrup qəbiüstü abidələr mövcud olmuşdur: bunlar müxtəlif formalı şaquli başdaşılar (stela), üfiqi sənduqələr (saqana), qoç, at fiqurlu heykəllər və başqalarıdır. Məzar daşları üzərində böyük məharətlə oyulmuş həndəsi, nəbati ornamentlərlə yanaşı, insan, heyvan, quş fiqurlarına və hətta süjet xarakterli kompozisiyalara da təsadüf edilmişdir. Bunlar sadəcə dekorativ xarakter deyil, dəfn olunmuş insanın cinsi, peşəsini

diqqətə çatdıran təsvirlər kimi də maraqlı idi.

### 3.2. Dekor tərtibatında kompozisiyanın quruluş prinsipləri

Kompozisiyanın ifadə vasitələri əsasən təbiət qanunauyğunluqlarında mövcud olan qayda və üsulların tətbiqi ilə həyata keçirilir, eyni zamanda yaradılan obyektə tətbiq edilən düşüncənin, ideyanın əks edilməsi prosesi kimi müəyyənləşdirilirdi. Ümumiyyətlə, tamlıq, təzad, nisbət, ritm, simmetriya (asimmetriya), statika (dinamika), qanunauyğunluqlar tarixən təbiətdə təbii hadisələrin xüsusiyyəti kimi həmçinin insanın davranış normalarında və onun anatomiyasında, qavrama xüsusiyyətlərinə, psixoloji təsir amillərində rast gəlinir. Kompozisiyada əsas məqsəd mövcud vəziyyəti və qəbul edilmiş reallığı yaradıcı prosesdə norma və qaydalar çərçivəsində yenidən düşünülməsini nəzərdə tutan bədii obrazın təcəssümüdür. Kompozisiya həmişə insanın təbii psixoloji prosesləri ilə şərtlənir − qavrama, vizual yaddaş və təxəyyül əsasında təsəvvürdə canlanır. İnsanın istənilən bədii yaradıcılığının psixoloji əsasını "təxəyyül" – "insan psixikasının yeni ideyalar və bütöv obrazlar yaratmaq qabiliyyəti, o cümlədən bilavasitə qavramada olmayan obrazlar, hissiyyatlı təcrübənin məzmununun emalı hesabına çıxış edir".

Bədii yaradıcılığın hər bir elementi: xətt, rəng, kölgə, səthlərin bəzədilməsi, məkan təşkili - bədii elementlərin harmoniyasını təşkil edən digər elementlərə nisbətən müəyyən ritm ilə çıxış etməsidir.

İnsan gözünün optik imkanları hesabına şəhər mənzərəsini, izləyicidən şərti olaraq müxtəlif məsafəli bir neçə vizual plan və məkan zonaları şəklində təsəvvür etmək olar. Bu mənzərələr müxtəlif rəng intensivliyi, işıq dərəcəsi, bina, qurğular və onların hissələrinin cizgilərinin aydınlığı ilə xarakterizə olunur. Qeyd edək ki, baxış bucağının vəziyyətini əsasən iki qrup: statik-hərəkətsiz, dinamik-hərəkətli qəbuletmə müəyyən edir. Müşahidəçi məkanda hərəkətsiz vəziyyət aldıqda qavranılan mühitin surəti "dairəvi panoramların" bir anda üst-üstə düşən təsvirlərin sırasında formalaşır.

Memarlıq obyektinin - Möminə Xatun türbəsinin insanın baxış nöqtəsindən asılı olaraq qavranılmaq nəzəriyyəsinin üzərində dayansaq abidəyə 15m məsafədən tamaşa etdikdə, abidəni ümumi bir obraz kimi qavrayırıq və bu məsafədən səthlərin dekorlarının necə aydın müşahidə edildiyinin fərqinə varırıq. Belə bir sual yaranır. Görəsən dahi sənətkarın düşündüyü hansı məntiq belə gözəl qavramanı yaradan səbəbdir? Bəlkə bunlar səth müstəvilərin bir neçə hissəyə xırdalanması nəticəsində yaranan relyeflərin yaratdığı işıq-kölgə oyunu hesabınadır.

Müasir elmin bu nəzəriyyələrini Azərbaycan orta əsr memarlığında dekor sənəti xüsusiyyətlərinə tətbiq edəriksə, belə bir nəticəyə gələ bilərik.

1. Hər bir Azərbaycan orta əsr dekor elementləri insan gözünün ən uyğun görmə dərəcəsinin orta həddindədir ($30^0$) Məs. Gülüstan türbəsi.

2. Hər bir Azərbaycan orta əsr dekor sənətinin memarlıq abidələrində tətbiqi vizual olaraq hündürlük nisbətlərinin qəbul olunmasında yenə də orta həddə qədərdir.(9m) Məs. Yusif ibn Küseyir türbəsi.

3. Hər bir Azərbaycan orta əsr dekor xüsusiyyətlərində relyef xüsusiyyəti çox qənaətlə istifadə olunaraq, işıq-kölgə effektinin yaradılması ilə bütünlükdə müstəvi üzərindəki ən kiçik element belə vizual olaraq qəbuledilləndir. Məs. Mömünə Xatun türbəsi.

4. Orta əsr Azərbaycan memarlıq abidələrində həm daxili, həm də xarici mühitin qəbul edilməsində insan miqyasına uyğunluq (həyətlər, fontanlar, giriş hissələr, rəng tərtibatı) ilə yaradılmışdır. Məs. Şirvanşahlar sarayının daxili həyət kompozisiyası.

5. Orta əsr Azərbaycan memarlıq abidələrində optimal qavrama zamanı izləyicini 60 – 100 m məsafədən ayrı-ayrı element və dekorların tətbiqində orta görmək imkanı qazanır. Məs. Qarabağlar türbəsi.

**3.3. Orta əsr dekor sənəti ənənəsinin müasir dövr Azərbaycan memarlığına tətbiqi”** adlanır.

Təhlillərimizdə əsasən Azərbaycanın orta əsr memarlığında dekor sənətinin müxtəlif memarlıq məktəbləri üzrə xüsusiyyətlərini

araşdırdıq. Bu araşdırmalar təbii ki, hər bir məktəbin özünəməxsus dekor sənətinin material, rəng tərtibatı, eksteryer, həm də interyer üzərində ifasında müxtəlif prinsipləri əks etdirdiyini göstərdi.

Ümumiyyətlə, Azərbaycan dekor sənəti daha çox orta əsr daş oymalarla ənənəvi memarlıq xüsusiyyətlərini qoruyub saxlamışdır. Daş oymalarına ənənəvi memarlıq məktəblərinin fəaliyyətində şahid olduğumuz üçün, Azərbaycan dekor sənəti XIX - XX əsrdə tikilən yeni memarlıq formalarında da, bu mərhələnin bütün yeni tikilən abidələrində də mükəmməl bir ənənəvi təcrübənin tətbiqini davam etdirirdi. Biz M.Useynovun bütün əsərlərində 60 -70 ci illərə qədər daha çox orta əsr dekorativ tətbiqi sənətin ifadəsinin müntəzəm olaraq şahidi oluruq.

Sovet memarlığının1970-1990 cı illərində biz dekorativ tətbiqi sənətin minimum həddini izləyə bilirik. Çünki kütləvi panel və blok tikililərdə heç vaxt dekorativ tətbiqi sənət üçün yer ayrılmamışdı. Ayrı-ayrı binalarda haradasa bir interpretasiya, bir ifadə, balaca detal şəklində bunu element kimi görmək mümkündür. Amma biz heç vaxt deyə bilməzdik ki, memarlıq 1970- 1990 ci illər arasında öz tətbiqi və dekor sənətində o illərə məxsus binalarda öz ifadəsini tapmışdır.

Bu gün Azərbaycan dekorativ sənətinin heç də unudulması qorxusu yoxdur. Çünki, istənilən bir memarlıq əsərlərində bu və ya başqa şəkildə dekorativ sənət və onun tətbiqinə müraciət hələ də bitmir. Ola bilsin ki, müasir ictimai tikililər, ofislər və sosial tikili mərkəzləri çox konkret şüşə - metal materiallarından təşkil olunmuş obrazları ilə gündəmdə təqdim edilir. Lakin, kiçik detallarda, girişlərdə, interyerlərdə xüsusi dekorativ elementlər və şəbəkələrdən istifadə olunur. Bu gün Bakı, Gəncə, Naxçıvan, Qəbələ şəhərlərinin ümumi obrazına xələl gətirmədən müasir binaların fasad həllərində və iç məkanlarında orta əsr memarlıq məktəblərinə məxsus dekor incəlikləri müasir materiallardan istifadə edilərək vurğulanır. Müasir işıq, rəng sistemində onlar daha da ifadəli görünüş yaradırlar.

Həmçinin yaradıcılıq üzrə müxtəlif ixtisaslara yiyələnən bakalavr və magistratura pilləsində təhsil alan tələbələrə orta əsr dekor sənətinin əsas xüsusiyyətlərinin tədrisinə daha geniş yer ayrılması günün tələbi kimi səslənə bilər.

## TƏDQİQATIN ƏSAS NƏTİCƏLƏRİ

1. Alban memarlığında dekor tətbiqinə ümumilikdə "xüsusi qənaətlə" az və sadə tərtibatla yanaşılması müşahidə olunur.

2. Alban dini tikililərdə dekor bəzi hallarda təkcə portallarda aşkarlanmışdır.

3. Erkən orta əsrlərdə (VI-VII) Azərbaycan memarlıq abidələrində zəngin oyma sənətinə az rast gəlinmişdir.

4. IX əsr İslam dini tikililərində ağ rəngli mala - stuk (yüksək keyfiyyətli mala) tətbiqi dekor tərtibatında ən çox kompozisiya elementi sayılan fonun təşkil olunmasında istifadə edilmişdir.

5. Orta əsr daş sənəti üzərində ən nəfis, incə, qanunauyğun prinsipli dekor tərtibatı abidələrimizdə dekorları dayanıqlı və bənzərsiz edən üç əsas xüsusiyyətlə fərdi bir yanaşma ənənəsinin yaranmasından xəbər verir. Bunlar:

- İnşaat materiallarından bacarıqla, onun imkanlarından maksimum istifadə;
- Memarlıq məktəblərini bir-birindən fərqləndirən xüsusi "formulaların" mövcudluğu;
- Azərbaycan sənətkarlarının zamanla Yaxın və Orta Şərq ölkələrində peşəkar yaradıcılıq fəaliyyətləri.

6. Orta əsr abidələrimizin yaradıcı müəllifləri zəngin və xüsusi rəng palitrası yaratmışlar. Dekor tərtibatında bu xüsusiyyətləri ayrı-ayrılıqda memarlıq məktəbləri üçün xarakterizə etmək olar.

- Bişmiş kərpic materialının köməyi ilə yaradılmış qırmızı rəng xüsusiyyəti. Bu rəng dörd memarlıq məktəbi üçün xarakterik mahiyyət kəsb etmişdir. (Aran, Naxşıvan – Marağa, Qəzvin – Həmədan və Təbriz memarlıq məktəbləri);
- Orta əsr dekor sənətində xüsusi on rəng qrupu olmuşdur ki, onlardan da kaşı materialının köməyi ilə yaradılmış göy, mavi, firuzəyi üç rəng qrupu xüsusi "çoxluq əmsalı" yaratmışdır. Bu rəng qrupu Qəzvin – Həmədan və Təbriz məktəblərinə xas xüsusiyyətdir;
- Əhəng daşı materialının köməyi ilə yaradılmış sarı qum və ya parlaq olmayan qızılı çalarlar kimi rəng xüsusiyyətləri isə əsasən Şirvan memarlıq məktəbi üçün ən xarakterik rəng sayılır;

7. XI əsrdən başlayaraq üzü şirəli bişmiş kərpic yeni tikinti materialı kimi geniş istifadə edilmişdir. Bu da memarlıq formalarının dekorativ xarakter alması ilə nəticələnmişdir. Bunlara baştağ kompozisiyalarında, yarımgünbəzlərin stalaktitlərlə doldurulmasın da və coxmərtəbəli karniz qurşaqlarının nümunələrində rast gəlinmişdir.

8. XII əsrdə dekor elementləri sadə formalı ikirəngli üzləmə hörgülərinin, üzləmə bloklarla əvəzlənməsinə gətirib çıxarmışdır. Qeyd edək ki, modul sistemli elementlərin ritmik təkrarı məhz bu dövrlərdə nəticə etibarilə gözəl və ifadəli görünüşün yaranmasına səbəb olmuşdur.

9. XII-XIII əsr Azərbaycan memarlıq abidələrində tikinti materialı kimi kərpiclə daşın birgə işlənməsi istər konstruktiv, istərsə də gözəl estetik görkəmli dekor sənətinin zənginləşməsinə səbəb olmuşdur. Gülüstan, Xaraba Gilan və İmamzadə Vəli türbələri timsalında.

10. Orta əsr memarlıq məktəbləri üzrə dekor tərtibatında həndəsi, nəbati, zoomorf və epiqrafik yazılar memarlıq abidələrimizin müxtəlif elementlərində dekor sənətinin xarakterik xüsusiyyətlərinin yaranması kimi qiymətləndirilməlidir.

11. Orta əsr Azərbaycan memarlıq tarixində epiqrafik yazılar üslub xüsusiyyətlərinə görə ümumiləşmiş səkkiz xətt növünün mövcud olması nəticəsinə gəlinməyə əsas verir (kufi, süls, nəsx, reyhani, toqi, ruqə, nəstəliq, mühəqqaq)

12. Yazı dekor sənəti həm informasiya daşıyıcısı həm də, dini təbliğat xarakterli təkrar olunan çoxsaylı yazı kompozisiyalarında fasad müstəvilərini bəzəyən dekor elementləri kimi qəbul edilmişdir. (Şirvan memarlıq məktəbi istisna olunmaqla)

13. İslamın qəbul edildiyi dövrdən ta bu günə kimi epiqrafik yazılar- kitabələr öz əhəmiyyətini itirməmişdir.

14. İslam dövrünün ustadları öz yaradıcılıqlarında bina obrazını zənginləşdirmək üçün bəzək elementlərindən bədii ifadə dilini yaratmaq, tikiliyə ifadəli görünüş bəxş etmək və formaların mütənasibliyini müşahidə etmək niyyətini rəhbər tutmuşlar.

15. XIV-XIX əsrlərdə qəbirüstü abidələr şaqülü istiqamətli başdaşı (stela), üfüqi istiqamətli çox da böyük olmayan sənduqə

(saqana) və ya sinə daşı, bir də qəbir tavasından ibarət vahid kompozisiya quruluşu yaratmışdır.

16. XIV-XIX əsr Azərbaycanın digər rayonları ilə müqayisədə şimal-şərq rayonlarının abidələrində materialın sərtlik və ya kövrəkliyi səbəbindən xətti yazı kiçik ölçülü olmuşdur.

17. Alban abidələrində çərçivəli, mərkəzi elementli, zəngin dekor oyma sənəti əsasən xaçdaşlarda ifadə olunmusdur. (XIV-XVII əsrlər)

18. Zəngin dekor tərtibatı kimi memarlıq tarixində öz adını qoruyub saxlayan abidələrdə tək dekorativ ornamentlər deyil, daha çox səth – müstəvidə relyefli təbəqələrin verilməsi faktı məhz bu zənginliyin qəbul edilməsində xüsusi əhəmiyyət kəsb etmişdir.

19. Müstəvilərin incə nisbətlərlə girintili-çıxıntılı tərtibatı daha çox Naxçıvan memarlığı üçün xarakterik sayıla bilər. Ən əsası bu tərtibatda sadə üfüqi və şaquli xətlərin yaratdığı işıq –kölgə effekti məhz zəngin dekor tərtibatında xüsusi önəm kəsb etmişdir.

20. Müasir dövrdə baxış nöqtəsindən memarlığın qəbul olunması nəzəriyyəsi orta əsr abidələrinə tətbiq ediləndə gözlə binanın arasında məsafənin dəyişməsilə yaranan zəngin vizual effektin alınması nəticəsini qəbul etdirir.

21. Müasir Azərbaycan memarlığında dekor sənətini qoruyub saxlamaq üçün orta əsr dekor sənətinin qanunauyğunluqlarına sadiq qalmaq əsas şərt sayılmalıdır.

## DİSSERTASİYA MÖVZUSUNA DAİR DƏRC OLUNMUŞ ELMİ ƏSƏRLƏR:


1. Orta əsr memarlığı dekor tərtibatının M.Useynov yaradıcılığında əks-sədası. XX əsr Azərbaycan memarlığında Mikayıl Useynov zirvəsi adlı elmi-praktiki konfrans. Bakı-2015, s. 57-60.
2. Həndəsi qanunauyğunluqların dekor tərtibatında rolu. AzMIU-nin Elmi əsərlər jurnalı. №2, Bakı-2015, s.61-64.

3. Azərbaycan memarlığının İslama qədərki dövrü və dekor tətbiqinin formalaşması. Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransı. II cild, Bakı 2016, s.471-473.
4. Orta əsr Azərbaycan memarlıq məktəbləri üzrə dekor xüsusiyyətləri. “Memarlıq, İnşaat və Nəqliyyat sahələrində proqressiv texnologiyalar” mövzusunda elmi-praktik konfrans. Bakı-2016, s. 21-23.
5. Turizm tarixi abidələrin qorunması metodu kimi. Kurortların, istirahət zonalarının və turizm yerlərinin memarlığı və şəhərsalma inkişafı. Beynəlxalq elmi-praktiki konfrans. Bakı-2016, s.358-361.
6. Memarlıqda dekor forması kimi stalaktitlərin inkişaf təkamülü. AzMIU-nin Elmi əsərlər jurnalı №1. Bakı-2016. s.83-87.
7. Azərbaycan memarlığında baştağ kompozisiyasının bədii tərtibatı. “Dizaynın müasir problemləri” adlı elmi-praktiki konfrans. Bakı-2016, s. 271-277.
8. Orta əsr Azərbaycan məscidlərinin özünəməxsus xüsusiyyətlərinin şərq memarlığında əks-sədası. AzMIU-nin Elmi əsərlər jurnalı №1. Bakı-2017, s.66-72.
9. Azərbaycan orta əsr memarlığında rəng tərtibatının özəlliyi. Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının toplusu №2(14), Bakı-2017, s.44-48.
10. Геометрические закономерности декоров в архитектуре средних веков. Казахской головной архитектурно-строительной академии №3(65), Вестник Научный журнал. Алматы-2017, s.70-73.
11. Orta əsr Azərbaycan memarlığında tikinti materiallarının rolu. AzMİU-nin Elmi əsərlər jurnalı №1, Bakı-2018, s.27-32.
12. Orta əsr dini tikililərinin interyer tərtibatında mehrab kompozisiyasının dekor özəllikləri. Dizaynın müasir problemləri:İnsan-Dizayn-Mühit. II Respublika elmi–praktiki konfransı, Bakı-2018, s.364-372.
13. Azərbaycan orta əsr memarlığında minarələrin inkişaf mərhələləri. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş doktorantların və gənc tədqiqatçıların Beynəlxalq elmi konfransı, Bakı-2018, s.36-40.

14. Orta əsr Azərbaycan memarlıq abidələrində kitabələrin bədii tərtibat xüsusiyyətləri. AzMIU-nin Elmi əsərlər jurnalı №2, Bakı-2018, s.41-46.
15. Декоративное оформление фасадов традиционной архитектуры Азербайджана. Дизайн и архитектура: синтез теории и практики. Сборник научных трудов. №2, Краснодар-2018, s.280-286.
16. Azərbaycan memarlığında qülləvarı türbələrin dekor tərtibatının xüsusiyyətləri. Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransı, Bakı-2018, s.395-397.
17. Orta əsr abidəsi Şirvanşahlar kompleksi memarlığının dekor xüsusiyyəti. Azərbaycan Memarlar İttifaqının Memar jurnalı. №21, Bakı-2019, s.170-175.
18. Строительные материалы в декоративном оформлении средневековых архитектурных памятников Азербайджана**.** Dizaynın müasir problemləri. III Beynəlxalq elmi-praktiki konfrans. Bakı-2021, s.179-194.
19. Classification of features of decor arrangement in Azerbaijani medieval architecture. The 1st International scientific and practical conference "Modern research in science and education" (September 14-16, 2023) BoScience Publisher, Chicago, USA. Page 114-117.

## 1.2. MEMARLIQDA DEKOR SƏNƏTİNİN FORMALAŞMA MƏRHƏLƏLƏRİ (XI-XV ƏSRLƏR)







**CƏDVƏL 8** **Dekoru təşkil edən ornamentlər**

## 1.2. MEMARLIQDA DEKOR SƏNƏTİNİN FORMALAŞMA MƏRHƏLƏLƏRİ (XI-XV ƏSRLƏR)



Xərrəqan türbələri, 1067-1093 cü il, Qəzvin

Xüsusi qəliblərdə hazırlanmış naxış şablonları bir-birinə məhlulla yapışdırılaraq, üzlük bloklar əmələ gətirirdi. Bu da işin sürətini artırırdı. Naxçıvan-Marağa, Qəzvin-Həmədan abidələrində bu üsul daha əlverişli idi. Modul elementinin təkrarı işin sonunda gözəl bir görünüşün yaranmasına səbəb olurdu.

Möminə xatun türbəsi, 1186, Naxçıvan

**CƏDVƏL 19** **Kərpic bəzək növləri**

## 1.2. MEMARLIQDA DEKOR SƏNƏTİNİN FORMALAŞMA MƏRHƏLƏLƏRİ (XI-XV ƏSRLƏR)








**CƏDVƏL 23** Dekorun tətbiqi sahələri

## 1.3. ORTA ƏSR MEMARLIĞINDA DEKORUN BƏDİİ TƏRTİBAT XÜSUSİYYƏTLƏRİ

### 1.3.1. Dini tikililərdə dekor tərtibatının inkişafı (minarələr, baştağlar, günbəzlər, mehrablar)






ŞƏMKİR MİNARƏSİNİN (XI ƏSR) MEMARLIQ LAYİHƏSİ, CİZGİ MÜƏLLİFƏ MƏXSUSDUR

**CƏDVƏL 27** Şəmkir minarəsinin memarlıq layihəsi




- Aran memarlıq məktəbi XI-XIII
- Naxçıvan Marağa memarlıq məktəbi. XII-XV
- Qəzvin - Həmədan memarlıq məktəbi XII-XV
- Şirvan Memarlıq məktəbi XII-XV
- Təbriz memarlıq məktəbi XIII-XVI

C.Qiyasiyə görə Azərbaycan memarlıq məktəblərinin xəritə üzrə bölgüsü

**CƏDVƏL 34** ORTA ƏSR AZƏRBAYCAN MEMARLIQ MƏKTƏBLƏRİ

## 2.6 AZƏRBAYCAN ORTA ƏSR MEMARLIĞINDA DEKOR TƏRTİBATI XÜSUSİYYƏTLƏRİNİN TƏSNİFATI

| Sıra № | Dövr | Coğrafi ərazi | Abidənin adı | Müəllif | Kompozisiya quruluşu (simmetrik asimmetrik) | Elementlərdə dekor | Baştağların növləri | Ornament növləri (həndəsi, nəbati, zoomorf, yazı) | Dekorlarda Formalar (müstəvi həcmli-relyefli) | Dekorlarda material | Dekorlarda rəng |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| | | | | | | Aran memarlıq məktəbi | | | | | |
| 1. | XII | Şəmkir | Şəmkir minarəsi | | simmetrik |  Kürsüdə, gövdədə, şərəfədə | Üz baştağ | həndəsi ləçəkli bitki, kufi | relyefli | kərpic | qırmızımtıl |
| 2. | XII XIII | Laçın-Cicimli Kəndi | Məlik Əjdər türbəsi | | simmetrik |  gövdədə, giriş baştağda, iç məkanda | Haşiyə baştağ | həndəsi (altıbucaqlı) zoomorf (qoşabuynuzlu qoç) | relyefli | cilalanmış əhəng daşı bazalt plitə | açıq boz |
| 3. | XVII | Laçın-Cicimli kəndi | Kar gümbəz türbəsi | | simmetrik |  Barabanın tağlı-sütunlu səthində, gövdənin müxtəlif rəngli üzlük materiallarında | | sadə həndəsi | relyefli | yonulmuş əhəng daşı, bazalt plitə | qırmızı-boz |

**CƏDVƏL 65** AZƏRBAYCAN MEMARLIQ MƏKTƏBLƏRİ ÜZRƏ TƏSNİFAT CƏDVƏLİ

| Sıra № | Dövr | Coğrafi ərazi | Abidənin adı | Müəllif | Kompozisiya quruluşu (simmetrik asimmetrik) | Elementlərdə dekor | Baştağların növləri | Ornament növləri (həndəsi, nəbati, zoomorf, yazı) | Dekorlarda | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | Formalar) (müstəvi həcmli-relyefli | material | rəng |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| **Naxçıvan memarlıq məktəbi** | | | | | | | | | | | |
| 1. | XII | Marağa | Qırmızı Gümbəd, türbə (qülləvarı) | Bəkr Məhəmməd | simmetrik |  baştağda, səthlərdə, tillərdə | Üz baştağ | həndəsi, kufi | relyefli | daş, bişmiş kərpic, kaşı, gəc | qırmızı, firuzəyi |
| 2. | XII | Naxçıvan | Atabəylər kompleksi, məscid və giriş baştağı | Memar Əcəmi Naxçıvani | simmetrik |  Məscidin səthlərində (tağlarda, sütunlarda), qoşa minarəli baştağda | Ayrıca dayanan baştağ, üz baştağ | həndəsi kufi | relyefli | bişmiş kərpic, kaşı | qırmızı, göy |
| 3. | XII | Naxçıvan Kirnə | Kirnə dini kompleksi | | simmetrik |  | Üz baştağ | həndəsi | relyefli | bişmiş kərpic | qırmızı |
| 4. | XII | Naxçıvan | Yusif ibn Küseyir, türbəsi (qülləvarı) | Memar Əcəmi Naxçıvani | simmetrik |  baştağda, səthlərdə, frizdə | Üz baştağ | həndəsi, kufi | relyefli | bişmiş kərpic, gəc | qırmızı |
| 5. | XII | Naxçıvan | Möminə Xatun, türbəsi (qülləvarı) | Memar Əcəmi Naxçıvani | simmetrik | | Üz baştağ | həndəsi, kufi | relyefli | bişmiş kərpic, kaşı, gəc | qırmızı, göy |

| Sıra № | Dövr | Coğrafi ərazi | Abidənin adı | Müəllif | Kompozisiya quruluşu (simmetrik asimmetrik) | Elementlərdə dekor | Baştağların növləri | Ornament növləri (həndəsi, nəbati, zoomorf, yazı) | Dekorlarda | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | formalar (müstəvi həcmli-relyefli) | material | rəng |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| **Qəzvin-Həmədan memarlıq məktəbi** | | | | | | | | | | | |
| 1. | IX | Zəncan əyaləti, Abhar şəhəri | Zeyd əl Kəbir türbəsi | | simmetrik |  Konus formalı örtük konstruksiyanın səthi üzərində, frizdə | | həndəsi | müstəvi | bişmiş kərpic, kaşı | qırmızı, mavi, firuzəyi, sarı |
| 2. | VII XX<br><br>XII | Qəzvin əyaləti | Qəzvin Came məscidi<br><br>Xumartaş gümbədi | sifarişçi: Qəzvin hakimi Xumartaş Abdulla oğlu | simmetrik |  baştağın səthi və yarımsferik eyuqda, qalereyalarda, minarə, günbəz və iç məkanda | Həcm məkanlı baştağ | həndəsi, nəbati, kufi | müstəvi | daş, kərpic, gəc, kaşı | qırmızı, rəngarəng kaşılar |

| Sıra № | Dövr | Coğrafi ərazi | Abidənin adı | Müəllif | Kompozisiya quruluşu (simmetrik asimmetrik) | Elementlərdə dekor | Baştağların növləri | Ornament növləri (həndəsi, nəbati, zoomorf, yazı) | Dekorlarda | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | formalar (müstəvi həcmli-relyefli) | material | rəng |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| | | | | | | **Şirvan memarlıq məktəbi** | | | | | |
| 1. | VIII | Şamaxı | Cümə məscidi | sifarişçi: Məsləmə ibn Əbdülmalik | simmetrik |  Fasad müstəvisinin balyasina hissəsində, iç məkanda | | nəbati, kufi | müstəvi, həcmli | əhəng daşı, kaşı | ağ-sarımtıl rəngarəng kaşı |
| 2. | XI (1078-1079) | Bakı, İçərişəhər | Məhəmməd, Sınıqqala məscidi. | Memar: Məhəmməd ibn Əbu -Bəkr | asimmetrik |  Minarənin şərəfə hissəsində, mehrabda, pəncərə çərçivələrində və barmaqlıqlarında | | həndəsi, kufi | relyefli | əhəng daşı | sarımtıl qızılı |
| 3. | XII | Bakı, İçərişəhər | Cümə məscidi | | asimmetrik |  | Üz baştağlar | həndəsi, kufi | müstəvi, relyefli | əhəng daşı, kaşı | sarımtıl, rəngarəng kaşı |

| Sıra № | Dövr | Coğrafi ərazi | Abidənin adı | Müəllif | Kompozisiya quruluşu (simmetrik asimmetrik) | Elementlərdə dekor | Baştağların növləri | Ornament növləri (həndəsi, nəbati, zoomorf, yazı) | Dekorlarda | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | formalar (müstəvi həcmli-relyefli) | material | rəng |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| | | | | | | **Təbriz memarlıq məktəbi** | | | | | |
| 1. | XII | Təbriz | Böyük Cümə dini kompleksi<br><br>Mirzə Sadıq ağa (Dənəvəri) məscidi<br><br>Hüccətül-İslam (Məmeqani) məscidi | | simmetrik |  Fasad müstəvilərində, giriş baştağlarda, minarələrin səthi üzərində, iç məkanın səthləri üzərində, pəncərələrdə şəbəkə kimi, mehrabda | Həcm məkanlı baştağ | həndəsi, nəbati, kufi, süls, nəstəliq | müstəvi, relyefli | kərpic, mərmər, kaşı, gəc | qırmızı, sarımtıl, göy, ağ |
| 2. | XII | Ərdəbil | Cümə məscidi | | |  | | nəbatı, | müstəvi, relyefli | kərpic, kaşı, yığma kaşı mozaika | qırmızı |

## II FƏSİL II. AZƏRBAYCAN ORTA ƏSR MEMARLIQ MƏKTƏBLƏRİ ÜZRƏ DEKORUN TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ.

### Aran

**Oxşar cəhətlər**
- Material
- Kərpic,
- Kaşı
- Gəc
- Rənga-rəng mozaika
- Daş üzərində oyma
- Həndəsi naxış

**Fərqli cəhətlər**
- Abidənin möhtəşəmliyi
- müxtəlif səviyyəli hörgülər;
- Əhəng daşı,
- kobud doğranmış çay daşı

### Naxçıvan-Marağa

**Oxşar cəhətlər**
- Material
- Kərpic
- Relyefli kərpic
- Bişmiş kərpic
- Kaşı
- Gəc
- Şirəli kərpic
- Həndəsi naxış

**Fərqli cəhətlər**
- Üzlük bloklarla üzlənmə,
- Hər tərəfdən təkrarlanmayan fasad həlli,
- Naxış kompozsiyalarında rəsmlərin xırdalanması

### Qəzvin-Həmədan

**Oxşar cəhətlər**
- Material
- Bişmiş kərpic
- Həndəsi naxışlı kərpic
- Rəngarəng mozaika kaşı lövhələr
- Gəc üzərində oyulan nəbati naxışlar

**Fərqli cəhətlər**
- Həcmi-fəza kompozisiya həllində nisbətlər
- iç məkan həlli
- funksional bölgü
- formayaranmada tarazlıq, müxtəliflilik,
- Günbəzli köşklər.kvadrat və səkkizüzlü qüllləvarı günbəz prtüklü türbələr
- hörgü sistemi
- bəzək elementləri
- İri həcmli gəc mehrabların zəngin dekor tərtibatı

### Şirvan

**Oxşar cəhətlər**
- Material
- Əhəng daşı
- Daş üzərində oyma
- Nəbati -naxışlı

**Fərqli cəhətlər**
- nəbati dekor
- Əhəng daşı
- xarici və daxili məkan həllinin uyğunluşu
- Formanın konstruksiya ilə sıx bağlılığı
- Sadə assimetrik kompozisiyalı quruluşu
- Memarlıq hissələrinin və dekorun yüksək bədii obrazı

### Təbriz

**Oxşar cəhətlər**
- Material
- Bişmiş kərpic
- Kaşı gəc həndəsi naxış XIV əsr I yarısı
- Nəbati naxış

**Fərqli cəhətlər**
- Abidənin iri həcmliliyi
- Al əlvan dekorlu
- Polixramiyanın inkişafı
- Kompozisiyanın yığcam aydınlığı
- Formanın tektonikliyi
- Dekorun plastikliyi
- İşıq kölgə təzadına hesablanmış hamar səthlər

**CƏDVƏL 66** ORTA ƏSR AZƏRBAYCAN MEMARLIQ MƏKTƏBLƏRİ ÜZRƏ DEKORUN MÜQAYİSƏLİ TƏHLİLİ

## III 3.1. FƏSİL. AZƏRBAYCAN ORTA ƏSR MEMARLIĞINDA DEKORUN ROLU
### Orta əsr memarlığında dekorun ifadə xüsusiyyətləri (rəng, material, epiqrafik yazılar)



Registan kompleksi (XV-XVIII)

XII əsr ayrı-ayrı günbəz və girişlərin, mehrabların rəng tətbiqini: firuzə, göy, ültramarin, yaşıl və qum rənglər təşkil edirdi. Səmərqənddə Registan kompleksi, Bibi-Xanım məscidi, Gur-Əmir türbəsi bu günə qədər öz rəng çalarlarını kaşı texnikası ilə saxlamışdır.



Bibi-Xanım məscidi(1404)

Gur Əmir türbəsi (1399-1405)

**1** Bir kərpic materialının köməyi ilə yaradılmış qırmızı rəng xüsusiyyəti. Bu rəng 4 memarlıq məktəbi üçün də xarakterik maliyyət kəsb edir.

Kaşı materialının köməyi ilə yaradılmış göy, mavi, firuzəyi rəng üçlüyü xüsusiyyəti.

**2** Bu qrup rəng xarakteri Təbriz və Qəzvin - Həmədan məktəbi üçün xarakterik rəng sayıla bilər.

**3** Əhəng daş materialının köməyi ilə yaradılmış sarı qum və ya parlaq olmayan qızılı çalarlar kimi rəng xüsusiyyəti. Bu rəng xarakteri əsasən Şirvan memarlıq məktəbi üçün ən xarakterik sayıla bilər.

**Praktiklik** — Təcrübəli yolu ilə müəyyən edilmişdir ki, mavi rəng digər rənglərdən fərqli olaraq, günəş şüalarının təsirinə davamlıdır. Buna görə məscidlərin və yaşayış evlərinin memarlığında istifadə edilmişdir.

**Filoloji xüsusiyyət** — Dünyanın bütün dillərində rənglərin təyin edilməsi çox gec meydana çıxdı. Hətta bu gün rənglərin düzgün ifadəsi zamanı onlara düzgün ad verə bilmirikMəsələn, qar kimi ağ, dağ külü kimi qırmızı, "yaş asfalt rəngləri"deyirik. Və hələ də bəzi Orta Asiya xalqları yaşıl və mavi, göy rəngləri təsvir etmək üçün rəsmi olaraq ayrı ayrı söz olsa da, gündəlik həyatda yalnız "göy"sözü istifadə olunur. Belə çıxır ki, Peyğəmbər (s.v.) "xədrun" (yaşıl) deyə bilsə də, ilk vaxtlar Onu göy kimi başa düşürdülər.

**Simvolizm** — Ərəblər ilk müsəlman olduqları üçün yaşadığı mühitlərində təbiətin yaşıl rənginə nadir hallarda rast gəlinirdi ətrafda mühitin Yalnız sarı qumu və mavi səması ilə assosiasiya daşıyan hisslər bu rənglər ətrafında xarakterizə edilirdi

**Nadirlik** — Digər əsas rənglərdən fərqli olaraq, mavi rəngin alınma texnologiyası çətin olmuşdur. Bu, o qədər nadir rəng idi ki, Çinin Min sülaləsində elitanın rəngi hesab edilirdi, İntibah dövründə isə göy yalnız müqəddəslərin geyimibu rəngdə ola bilərdi. Yalnız mavi rəngin əldə edilməsi, texnologi olaraq ona əlavələr etməklə müxtəlif çalarların alınması prosesini mənimsədikdən sonra, mavi rəng yalnız müsəlmanlar üçün deyil, bütün dünyada məşhurlaşır. Bu rəngin coğrafi yayılmasını Böyük İpək yolu ilə izləmək olar. Bu o deməkdir ki, İslam mədəniyyətinin yaşıl rəngdən daha çox mavi rəngdə istifadə edilməsində məhz dəbdə olan meyllər və ticarət münasibətləri mühüm rol oynamışdır.

**CƏDVƏL 67** Abidələrin ifadə xüsusiyyətlərində rəng.

## 3.2 DEKOR TƏRTİBATINDA KOMPOZİSİYANIN QURULUŞ PRİNSİPLƏRİ




Mömine-Xatun türbəsi (h582-1186) Naxçıvan. Memar Əcəmi. Türbənin ümumi görünüşü planı, səthlərin dekoru

**CƏDVƏL 76** Naxçıvan-Marağa memarlıq məktəbinin Mömine Xatun türbəsi. Baxış nöqtəsinin qavramaya təsiri.

## 3.3 ORTA ƏSR DEKOR SƏNƏTİ ƏNƏNƏSİNİN MÜASİR DÖVR AZƏRBAYCAN MEMARLIĞINA TƏTBİQİ




İsa bəy Hacınskinin evi Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti, 103 ünvanında yerləşir.1912

Ağabala Quliyevin evi. Hal hazırda Memarlar ittifaqının yerləşdiyi bina. 1899

Azərbaycan SSR pavilyonu.1939.

H.Əliyev fondu. 2004 il.

Azərbaycan Memarlıq və İnşaat universiteti. 1980.Memar. Leonard İqtanyeviç Qonsiorovskiy. Binanın tikilməsində Kalikov, Eldar İbrahimoviç və Tofiq Abdullayev.

Azəraycan Dram teatrı. 1958

Nizami Gəncəvi adına Milli Azərbaycan ədəbiyyat muzeyi. M.Useynov. 1939

Nizami məqbərəsi. 1947-91

**CƏDVƏL 81**

Dissertasiyanın müdafiəsi 23 fevral 2024-ci il tarixində saat 11:00-da Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.29 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1073, Bakı şəhəri, A.Sultanova küç., 11, AzMİU, korpus 1, III mərtəbə, aud. 317.

Dissertasiya işi ilə AMİU-nun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMİU-nun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 yanvar 2024-ci il tarixində göndərilmişdir.

Çapa imzalanıb:___.___.2024
Kağızın formatı: A5
Həcm:38958
Tiraj: 100